# Moskva Bəyannaməsi Azərbaycanın təhlükəsizliyinə zəmanət verir

Müasir dövrdə müstəqil xarici siyasət aparmaq, şübhəsiz ki, asan məsələ deyil. Hazırda dünyada çox ziddiyyətli geosiyasi proseslər gedir. Böyük dövlətlər öz maraqlarını təmin etmək üçün hətta güc tətbiqi ilə kifayətlənmirlər. Burada beynəlxalq hüquq normaları pozulur. Beynəlxalq təşkilatların iradəsinə də bəzi hallarda məhəl qoyulmur. Bu baxımdan müstəqilliyini əldə etmiş ölkələrin xarici siyasətinin hansı prinsiplər üzərində qurulması məsələsi kifayət qədər aktual görünür. Belə bir mürəkkəb geosiyasi vəziyyətdə Qoşulmama Hərəkatının üzvü və fəaliyyətdə olan sədri olan Azərbaycan tam neytral, öz milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdür və rəsmi Bakının digər ölkələrlə münasibətləri heç vaxt üçüncü tərəfə qarşı yönəlməmişdir. Azərbaycanın uzunmüddətli milli maraqlar mövqeyindən çıxış edən xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə yönəlmiş təhdidlərin aradan qaldırılması kimi həyati vacib məqsəd güdür.

Təbii ki, Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri regional səviyyədə sülh və sabitliyin bərqərar olması, əməkdaşlıq layihələrinin və iri nəqliyyat layihələrinin həyata keçirilməsi kimi strateji məqsədlərə nail olmaqdır. Həmçinin Azərbaycan xalqının mənafeyinin daha rasional müdafiəsi məqsədilə ölkə iqtisadiyyatının inkişafı üçün müxtəlif layihələrə xarici investisiyaların cəlb edilməsi bu müasir qlobal dünyada müstəsna əhəmiyyət kəsb edir. Beləliklə, demokratik inkişaf yolunu seçmiş Azərbaycan qonşu və digər dövlətlərlə ikitərəfli və çoxtərəfli əsasda müxtəlif sahələrdə bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı münasibətlər qurmaq və inkişaf etdirmək kimi ümumi məqsədi tam şəkildə həyata keçirir.

Birmənalı şəkildə vurğulanmalıdır ki, Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur. Belə ki, Azərbaycan və Rusiya müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulması, müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş fəaliyyətindən çəkinmək, öz



***Bu gün Azərbaycan dünyanın qlobal oyunçuları tərəfindən vacib aktor kimi qəbul edilir. Ölkəmizin belə bir şərəfə layiq görülməsinin əsasında Azərbaycanın yürütdüyü qarşılıqlı hörmətə və faydalı əməkdaşlığa söykənən müstəqil xarici siyasət kursu dayanır. Azərbaycan öz siyasətini aparır və heç bir güc mərkəzindən asılı deyil. Bu siyasət xalqın və dövlətin maraqlarına əsaslanır. Buna görə də, regionda və dünyada gedən proseslər fonunda Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, bütün güc mərkəzlərindən öz müstəqil siyasətinə, təhlükəsizliyinə zəmanət qazanmışdır. Fevralın 22-də Moskvada imzalanmış Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə məhz bu prizmadan qəbul edilməlidir.***

ərazisində hər hansı bir təşkilat və şəxslərin digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almağa dair öhdəlik götürürlər.

Bundan başqa, bəyannamədəki mühim məqamlardan biri də 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın, o cümlədən, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsinin vacibliyinin qeyd olunmasıdır. Mütəxəssislərin fikrincə, Moskva Bəyannaməsi 10 noyabr bəyannaməsinin yerinə yetirilməsi üçün yeni rıçaqlar və imkanlar yaradır. Bunu da, ekspertlər, Zəngəzur dəhlizinin yenidən bərpası kimi öhdəliklərin reallaşmasına yeni dəstək kimi qiymətləndirirlər. Əlbəttə ki, dünyada artan münaqişələr qarşısında milli maraqlarımızın qorunması strateji əhəmiyyət daşıyır. Buna görə də, Azərbaycanın dünyada müstəqil siyasət yeridən ölkə kimi tanınması, qlobal siyasi proseslər və beynəlxalq münasibətlər sistemində öz baxışına malik olması məhz bu uğurlu siyasətin nəticəsində ölkənin nüfuzunun yüksəlməsini, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin edir.

Moskva Bəyannaməsinin strateji əhəmiyyəti həm də ondadır ki, sənəddə Qafqaz regionu və Xəzərdə sabitliyin və təhlükəsizliyin təmin edilməsində qarşılıqlı fəaliyyətin zəruriliyi qeyd olunur və bu xüsusda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada nəzərdə tutulmuş bütün fəaliyyət prinsiplərinin vacibliyi təsdiq edilir. Məlumdur ki, Azərbaycanın həyata keçirdiyi milli inkişaf, regional və beynəlxalq təhlükəsizlik siyasəti Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində hərbi-geostrateji konfiqurasiyanın və təhlükəsizlik sisteminin formalaşmasında xüsusi rol oynayır. Bu kontekstdə Azərbaycan regionda gedən əksər geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirak edir, milli maraqlarının qorunmasına yönəlmiş çevik və məzmunlu addımlar atır.

Məlumdur ki, Sovet İttifaqının dağılmasından sonra Cənubi Qafqaz və Xəzər hövzəsi regionunda "geosiyasi boşluğun" yaranması bu məkanda etnik müxtəlif mahiyyətli siyasi və hərbi qarşıdurma proseslərinə təkan vermişdi. Avrasiyanın strateji əhəmiyyətli əraziləri hesab edilən Cənubi Qafqaz və Xəzər – Qara dəniz hövzəsi müxtəlif beynəlxalq güclərin maraq dairəsinə düşmüşdü. Bu maraq hələ də aktuallığını və ciddiliyini saxlayır. Çünki Cənubi Qafqaz və Xəzər dəniz hövzəsi strateji enerji və nəqliyyat-kommunikasiya potensialı olduqca böyükdür və beynəlxalq enerji təhlükəsizliyi sisteminin nüfuzlu mərkəzlərindən biri kimi qəbul olunur. Bu mənada Moskva Bəyannaməsində Qafqaz regionu və Xəzərdə sabitlik və təhlükəsizlik məsələlərinə toxunulması Azərbaycan dövlətinin yürütdüyü praqmatik xarici siyasətin ruhuna uyğundur.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfəri çərçivəsində fevralın 23-də TASS Agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə bildirdi ki, Rusiya ilə Azərbaycan arasında çoxsaylı sənədlər imzalanıb – 200-dən artıq. Lakin bu, xüsusi sənəddir, çünki dövlətlərarası münasibətlər qurulmasından 30 il keçdikdən sonra biz müttəfiqlik səviyyəsinə çatmışıq: "Əslində, mən deyərdim ki, biz bunu rəsmən təsbit etmişik. Ona görə ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakteri, mənim fikrimcə, uzun illər boyu müttəfiqlərin münasibətlərinin bütün parametrlərinə cavab verirdi. Yəni, bu sənəd təkcə böyük işə yekun vurmaqla qalmayıb, həm də Rusiya ilə Azərbaycanın gələcək qarşılıqlı əlaqələri üçün, müsbət regional inkişaf üçün böyük perspektivlər açır".

Dövlət başçısı, həmçinin əlavə etdi ki, bəyannamə tərəflərin hərtərəfli fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir: "Əlbəttə, bu bəyannaməni müxtəlif istiqamətlər üzrə konkret sazişlərlə möhkəmlədəcək silsilə sənədlər də işlənib hazırlanma mərhələsindədir".

Bir sözlə, Moskva Bəyannaməsi böyük diplomatik uğur olmaqla yanaşı, Azərbaycana Rusiya ilə müttəfiqlik əlaqələri formalaşdırmaq imkanı verir. Bundan başqa, Azərbaycan qardaş ölkə Türkiyə ilə də müttəfiqdir və regionun iki qüdrətli ölkəsi ilə müttəfiqlik əlaqələrinə malik olması dövlətimizin milli maraqlarının yüksək səviyyədə təmin olunmasına zəmin yaradır. Eyni zamanda, Azərbaycan Avropa İttifaqı ilə də saziş imzalamağa hazırlaşır. Bütün bunların fonunda Azərbaycanın bütün güc mərkəzlərindən öz müstəqil siyasətinə, təhlükəsizliyinə zəmanət qazanması, əlbəttə ki, güc, bacarıq, məharətli diplomatiya tələb edir.

**Səbuhi MƏMMƏDOV,**
***"Xalq qəzeti"***